UOT 373.3/5.

***Seyidəli Həsən oğlu Məmmədli***
*pedaqogika üzrə fəlsəfə doktoru*

# PEDAQOJİ FƏALİYYƏTDƏ MÜƏLLİM ŞƏXSİYYƏTİNİN ROLU

***Сеидали Гасан оглу Мамедли***
*доктор философии по педагогике, доцент*
*Азербайджанский институт туризма и менеджмента*

# РОЛЬ ЛИЧНОСТИ УЧИТЕЛЯ В ПЕДАГОГИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ

***Seidali Hasan Mammadli***
*doctor of Philosophy in Pedagogy, Associate Professor*
*Azerbaijan Institute of Tourism and Management*

# THE ROLE OF THE TEACHER IN PEDAGOGICAL ACTIVITY

**Xülasə:** Hazırda Azərbaycan təhsilində əsas istiqamətlərdən biri müəllim hazırlığı ilə əlaqədardır. Bu sahədə aparılan işlər respublikamızda müəllim hazırlığının müasir tələblərə cavab verəcək səviyyəyə qaldırılmasını, daha keyfiyyətli və yaradıcı işləmək qabiliyyətinə malik pedaqoji kadrların hazırlanmasını, bu hazırlığın müasirləşdirilməsini, beynəlxalq təcrübə və milli ənənələr əsasında təhsil müəssisələrində pedaqoji prosesin daha da təkmilləşdirilməsi və optimallaşdırılması məsələlərini əhatə edir. Təqdim olunan məqalədə bu məsələlərin üzərində dayanılır.
***Açar sözlər**: gənc nəsİl, təlim, tərbiyə, müəllim hazırlığı, bilik və bacarıqlar, pedaqoji təfəkkür*

**Резюме:** В настоящее время одно из основных направлений в образовании Азербайджана связано с подготовкой учителей. Работы, проводимые в этой области охватывают вопросы повышения уровня подготовки учителей в соответствии с современными требованиями, подготовку более квалифицированных и творческих учителей, модернизацию этой подготовки, с дальнейшим совершенствованием и оптимизацией педагогического процесса в учебных заведениях, основанных на международном опыте и национальных традициях. В представленной статье основное внимание уделяется вышеперечисленным вопросам.
***Ключевые слова**: молодое поколение, обучение, воспитание, подготовка учителя, умения и навыки, педагогическое мышление*

**Summary:** Currently, one of the main directions in the formation of Azerbaijan is connected with the training of teachers. The work carried out in this area covers the issues of raising the level of teacher training in accordance with modern requirements, the training of more qualified and creative teachers, the modernization of this training, with the further improvement and optimization of the pedagogical process in educational institutions based on international experience and national traditions. The article focuses on the above issues.
***Keywords:** young generation, training, upbringing, teacher training, skills, pedagogical thinking*

Gənc nəslin təlim-tərbiyəsinin optimal təşkilində aparıcı sima müəllimdir. Müəllim uşaq və yeniyetmələrin mənəvi aləminin memarı, cəmiyyətin etibar etdiyi şəxsdir. Cəmiyyət ən əziz, ən qiymətli sərvətini – uşaqları, öz ümidini, gələcəyini müəllimə etibar edir. Çünki M.K. Atatürkün dediyi kimi, “müəllim bir şama bənzər, özünü əridərək başqalarına işıq verər”. Bütün zaman kəsiklərində öz vacibliyi ilə diqqət mərkəzində olan müəllim həyatımızın müasir dönəmində daha çox aktuallıq kəsb edir. Çünki müstəqil respublikamızın öz qüdrətini artırmasında və istiqlalın qorunmasında müəllimin ortaya qoyacağı məhsul – yetişdirdiyi gənc nəsil mühüm rola malikdir. Bunun nəticəsidir ki, hazırda Azərbaycan təhsilində əsas istiqamətlərdən biri müəllim hazırlığı ilə əlaqədardır. Bu sahədə aparılan işlər isə respublikamızda müəllim ha-

zırlığının müasir tələblərə cavab verəcək səviyyəyə qaldırılmasını, daha keyfiyyətli və yaradıcı işləmək qabiliyyətinə malik olan pedaqoji kadrların hazırlanmasını, bu hazırlığın müasirləşdirilməsini, beynəlxalq təcrübə və milli ənənələr əsasında təhsil müəssisələrində pedaqoji prosesin daha da təkmilləşdirilməsi və optimallaşdırılması məsələlərini əhatə edir. Bununla yanaşı, ixtisasartırma və yenidənhazırlama təhsilinin rolunun artırılması da diqqət mərkəzində saxlanılır.

Təlim prosesi öyrədən və öyrənəndən ibarət olmaqla iki tərəfdən ibarətdir. Təbii ki, burada əsas funksiyanı öyrədən daşıyır, yəni ağırlıq yükü müəllimin üstünə düşür. Müəllim təlimvericiliyi ilə bərabər həm də tərbiyəedici simadır. Bunun nəticəsidir ki, müəllimin qarşısında xalqın, dövlətin gələcəyini formalaşdırmaq kimi strateji məsələ qoyulub. Bu strateji məsələnin həyata keçirilməsində nəinki müəllimin hazırlıq səviyyəsi, hətta onun cinsə görə proporsiyası da mühüm əhəmiyyət daşıyır.

Aparılan təhlillər göstərir ki, respublikamızdakı 4500 orta məktəblərimizdə çalışan 151 min müəllimin 122 mindən çoxunu qadın müəllimlər təşkil edir. Pedaqoji ali məktəblərdə aparılan müşahidələr göstərir ki, keçən əsrin 90-cı illərindən başlayan bu tendensiya hələ də artmaqda davam edir. Pedaqoji universitetlərin magistratura pilləsində oxuyanların da 90-95 faizi qızlardan ibarətdir. Beləliklə, xanımların sayının mütləq çoxluğu nəinki orta ümumtəhsil məktəbləri müəllimləri arasında, hətta universitetlərdə də özünü kəskin şəkildə göstərir. Bu da o deməkdir ki, yaxın onilliklərdə tədris müəssisələrində kişi cinsli öyrədənlərin qıtlığı və yoxluğu davam edəcək. Bəs bunun pedaqoji fəaliyyətin nəticələrinə hansısa mənfi təsiri varmı?

Kişi müəllimlərin qıtlığı və olmaması məktəblilərin psixologiyasına və davranışlarına təsirlərsiz ötüşmür. Məlumdur ki, hazırda yalnız ana valideyndən ibarət kifayət qədər ailələr var. Bu da o deməkdir ki, uşaq nümunəvi kişi obrazını görə bilmir və müşahidə aparmır. Günün 6-7 saatını məktəbdə keçirən uşaq, yeniyetmə öz müəlliminin simasında nümunəvi kişi obrazını görür və bu obrazın konturlarını şüuraltına yeridir. Bu həm də oğlan uşaqları üçün vacibdir. Məktəbdə ideal kişi müəllimi obrazını görən şagird ona oxşamağa çalışır. Qızlar isə gələcək həyat yoldaşının həmin obraza bənzəməsini arzulayır.

Yeni nəsli cəmiyyətə, həyata hazırlayan üç faktordan biri məktəbdir. Digər iki faktor isə ailə və cəmiyyətdən ibarətdir. Təəssüf ki, hazırda həyatımıza hakim kəsilən gərginlik təbii olaraq ailədə, cəmiyyətdə və hətta məktəbdə də özünü göstərir. Bu gərginliklər isə yeni yetişən nəslə mənfi təsirsiz ötüşmür. Məktəbli qızlar arasında abort faktları, həddi-buluğa çatmamış oğlanların narkotikaya və müxtəlif cinayətlərə meyllənməsi həyəcan təbili çalınmasını tələb edən faktorlardır. Fikrimizcə, cəmiyyətimizdə humanitar siyasətin gücləndirilməsinə böyük ehtiyac var. Müəllimlərin diaqnostik qiymətləndirilməsi mərhələsindən sonra əmək haqlarının artırılması özünü pedaqoji stajı 20 ildən artıq olanlarda göstərsə də gənc müəllimlərin əmək haqları oğlanların pedaqoji ali məktəblərə yönəlmələrinə mənfi təsir göstərir. Bu istiqamətdə də ciddi yeniliklərin edilməsi və gələcəkdə pedaqoji sahədə kişi müəllimlərin xüsusi çəkilərinin artırılması istiqamətində islahatların aparılması zəruridir.

Hazırda müasir müəllimin yetişdirilməsi istiqamətində elə işlər aparılmalıdır ki, nəticədə müəllim aşağıdakı məsələləri özündə ehtiva edə bilsin: yeni pedaqoji təfəkkürün formalaşdırılması; təlim-tərbiyə prosesini müvəffəqiyyətlə həyata keçirmək üçün peşə bilik və bacarıqlarının formalaşdırılması; ixtisas fənləri və bütün pedaqoji-psixoloji fənlər üzrə nəzəri biliklərin praktik tətbiqi üçün bacarıq və vərdişlərin əldə edilməsi; pedaqoji fəaliyyətə tədqiqatçı kimi yanaşma və yaradıcı pedaqoji fəaliyyət təcrübəsinin formalaşdırılması; liderlik qabiliyyətinin inkişaf etdirilməsi; müasir metodların mənimsənilməsi və təbliği.

Müəllim biliklərlə yanaşı mədəni vərdişlər, emosiyalar və mənəviyyat məsələlərini şagirdlərə çatdırmalıdır. Müəllim əsas pedaqoji-psixoloji biliklərə yiyələnən, peşəkar vərdiş və bacarıqlara sahib olan, nəinki öz fəaliyyətini planlaşdıran, həm də pedaqoji prosesləri idarə edə bilən və yeniliklərə çevik münasibət göstərən mütəxəssis kimi yetişməlidir.

**Ədəbiyyat:**

1. Abbasov A. Müəllim hazırlığına yeni yanaşmalar. Bakı: Mütərcim, 2012.
2. Abbasov Ə. Kurikulum islahatının əsas istiqamətləri // Azərbaycan məktəbi, 2011, № 4
3. Abbasov Ə. Müəllim-şagird münasibətlərinin yeni mərhələsi / "Azərbaycan təhsili yeni inkişaf mərhələsində" mövzusunda respublika elmi-praktik konfransın materialları. Bakı: Mütərcim, 2010.

E-mail: seyidelimh@gmail.com
**Rəyçi:** *ped.ü.elm.dok., prof. Ş.T. Tağıyev*
**Redaksiyaya daxil olub: 24.05.2018**